# 400 çadırla qurulan Dünya dövləti – Osmanlı imperatorluğu



**Elşən Mirişli**
*Gəncə şəhəri, tarixçi*

***Fateh II Mehmed zamanında Anadolu və Balkanlarda iyirmiyə yaxın hökumət və bəylik var idi.Fateh bunların hamısını fəth edib,böyük Osmanlı imperatorluğu qurdu.Anadoluda Karaman oğulları bəylikləri və digər Türk bəyliklərindən başqa,Trabzon Rum imperatorluğu var idi.Fateh 1461-ci ildə buranı da aldı.Sonra Ağqoyunlu hökmdarı Uzun Həsənlə savaşıb,onu məğlub etdi (1473).***

***Uzun Həsən 1473-cü ildə Fateh II Mehmedə qarşı başladığı savaşda Tərcanda (Ərzincan yaxınlığında) məğlub olmuş və bu hadisədən çox kədərlənmişdi.***

Fateh zamanında Eğey dənizindəki adalar və Krım xanlığı da alındı və nəhayət, 3 may 1481-ci ildə Fateh II Mehmed ordugahda çadır içində öldü.Fateh dövrü Osmanlı İmperatorluğunun ən parlaq dövrlərindən olmuşdur.Fateh zamanında memarlıq və rəssamlıq da çox tərəqqi etmişdir.Sultan II Mehmed İstanbulun Fateh adı ilə məşhur olan məhəlləsində böyük mədrəsə, məscid və kitabxana tikdirmişdi.Bu mədrəsədə dini və dünyəvi elmlərin hər ikisi öyrədilirdi.

Fateh II Mehmedin məmləkət idarəsi üçün hazırladığı "Fateh" qanunnaməsi Osmanlı imperatorluğunun ilk qanuni-əsasisi( konstitusiyası -əsaslı qanunu) sayılır.

Fateh yaxşı şair olub ərəb və fars dillərini çox gözəl bilirmiş.Bundan başqa yunan və italyan dillərini də bilirdi.Onun zamanında İstanbul, Anadolu və Rumelidə bir çox mədrəsə,saray,məscid,karvansara,hamam,yol,körpü və qala tikdirmişdir.Fateh II Mehmeddən sonra oğlu II Bayəzid sultan oldu.31 illik sultanlığında böyük işlər görə bilmədi.O,ömrünün çoxunu oxumaq və ibadətlə keçirirdi və savaşı sevməzdi.Onun qardaşı Cem Sultan padşah olmaq üçün üsyan edib,Bayəzidlə savaşdı.Lakin məğlub olandan sonra Fransaya və oradan da İtaliyaya getdi və bir müddət oralarda avropalıların əlində alət olandan sonra,1495-ci ildə Neapolda öldü.

***Cem Sultan yaxşı şair, edib və cəsur əsgər idi.Onun türkcə müxtəlif şeirləri və fars dilində məsnəvisi vardır.***

***Bayəzid zamanında məmlüklər və Venesiyalılarla osmanlılar savaşdılar.Venesiyalıları Sapinenza Dəniz Müharibəsi ilə 25 avqust 1499-cu il məğlub etdilər.***

Türk donanmasının komandanı Kiçik Davud Paşa dənizçi deyildi.Ancaq komandanlıq yaxşı bir dənizçi olan Kemal Rəisə verilmişdi.Sağ cinah komandanı da yaxşı bir dənizçi olan Burak Reis idi.

Dünyanın ən güclü iki donanması arasında tarixin ən böyük dəniz döyüşlərindən biri olacaq və bu savaş Aralıq dənizinin həqiqi sahibini müəyyənləşdirəcəkdi.

***Döyüş uzaqdan top atəşləri ilə başladı. Burak Rəis ani,ancaq nə etdiyini bilərək öz admirallıq gəmisini düşmən gəmilərinin ortasına sürdü.Əvvəl 1000 nəfər əsgər daşıyan iki böyük Venesiya gəmisi,sonra içində 500-ə qədər əsgər olan bir sürü kiçik gəmi türk komanda gəmisini araya aldılar,qarmaqlar ataraq türk gəmisinə əsgər çıxarmağa başladılar.*** Düşmənin məqsədi Burak Rəisə bayraq endirtmək,beləliklə türk donanmasını təslim edib dağıtmaq idi.Ancaq Burak Rəis o vəziyyətdə bayraq endirmək üçün düşünməmişdi.Düşmən gəmilərinin sıxlaşıq topa halında başına yığışdığını və artıq görüləcək tədbir qalmadığını yəqinləşdirdikdən sonra öz gəmisi ilə bərabər düşmən donanmasını da yandırmağa qərar verdi.

Göyərtədə döyüş davam edərkən digər tərəfdən əmr alan bir qrup,düşmən gəmilərinə neft atmağa başladı.Bu anda düşmən gəmilərinin ortasında,burum-burum tüstü dumanı və alov yüksəlməyə başladı.Türk gəmisi ilə birlikdə çoxlu düşmən gəmiləri bir anda göylərə sovrulur,onların cəbhəxanaları da yandığı üçün bu çağacan eşidilməmiş bir partlayış,görünməmiş bir yanğınla Aralıq dənizində vulkanlar püskürtdü.Burak Rəislə birlikdə gəmisinin kapitanı Qara Həsən Rəis və 500 türk dənizçisi şəhid olmuşdular, amma neçə-neçə düşmən gəmisindəki minlərcə Venesiya əsgəri də parça-parça olub sulara töküldü.Bunların arasında Venesiya donanmasının komandanlarından Loredano və Armenio da vardı.Burak Rəis öz gəmisini tonlarla partladıcı ilə məhv edərək Venetsiya donanmasına öldürücü zərbə vurmuşdu.

Hər iki tərəfin donanmasındakı digər gəmilər bu misli görünməmiş qəhrəmanlıq səhnəsini seir edərkən türk donanmasının sol cinahına komandanlıq edən Kemal Rəis düşmənin donanmasının hamısını məhv etmək üçün hücuma keçmişdi.Sapienza dəniz müharibəsi ilə Aralıq dənizi türk donanmasının ixtiyarına verildi.Türklər bu tarixdən etibarən Sapienza adasına Burak Rəisin adını verdilər.Burak Rəisin qəhrəmanlığı türk dənizçiləri üçün örnək və iftixar qaynağı oldu.

***Sonra Məmləkət-i Qızılbaş Şah İsmayıl (1501-1524) məsələsi ortaya çıxdı.Şah İsmayıl sultan Bayəzidin yumşaqlığı və səhlənkarlığından istifadə edərək,Anadoluda Ələvilik təbliğatına başladı və onun tərəfdarları olan Anadolu qızılbaşları Şahqulunun rəhbərliyi ilə üsyan etdilər.Şahqulu adında lider xalq arasında şöhrət qazanmış,xeyli tərəfdarlar toplamışdı.Bundan sonra Kütahyaya doğru irəlləmişdi.***

Şahqulunu dayandırmaq və cəzalandırmaq üçün üzərinə göndərilən Qaragöz Paşa da məğlub oldu,milə çəkilərək edam edildi.Şahqulunun qızılbaşları yenilməz bir güc olduqlarına inanmağa başlamışdı.Yeni hədəf olaraq Bursanı seçdilər və Mərmərə sahillərinə endilər.

Şahqulu böyük qarışıqlıq yaratmışdı.Buna son qoymaq üçün baş vəzir Xadim Əli Paşa və şahzadə Əhmədin qüvvələri Göyçay yaxınlığında Şahqulunu sıxışdırdılar.Burada olan vuruşmada Qızılbaşlar dağılmış,Şahqulu öldürülmüş,ancaq baş vəzir Xadim Əli Paşa da şəhid olmuşdu.Şahzadə Əhməd Şahqulunun dağılan qüvvələrini təqib etmədi və Manisaya döndü.O,Manisanı qardaşı Qorquda vermək istəmirdi.Şahqulunun əsgərlərini yox etmədiyi üçün xalqın müdafiəsindən məhrum olacaqdı (1511).

Bu hadisələrlə qatlaşa bilməyən Bayəzidin oğullları sultanlıq fikrinə düşdülər və hətta Bayəziddin üçüncü oğlu Səlim atası ilə savaşdı və nəhayət 1512-ci ildə padşah istefa verib,taxtını oğlu Səlimə buraxdı.Səlim 1481-1510-cu illər arasında 29 il Trabzonda valilik etmişdir.Yavuz Sultan Səlim 9-cu Osmanlı sultanı və 88-ci islam xəlifəsidir.Hakimiyyət illəri 26 may 1512-21 sentyabr 1520-ci illərdi.

***Taxta oturanda 2.375.000 km2 olan Osmanlı imperatorluq torpaqlarını səkkiz il kimi qısa bir müddətdə böyütmüş və ölümündə imperiyanın torpaqlarını 6.557.000 km2 -ə çatdırmışdır.Səlim taxta atası II Bayəzidə qarşı çevriliş edərək çıxmışdı.Şahzadə Səlim taxta çıxmadan əvvəl haklim olaraq Trabzonda hökm sürürdü.Yavuz Sultan Səlimə qızını vetrmiş olan Krım xanı Məngli Gəray (1478-1515), ona hərbi dəstək təmin edərək taxta keçməsinə kömək etmişdir.***

***Padşahlığı dövründə Anadoluda birlik təmin edilmiş,xəlifəlik Misir Məmlüklərinə bağlı Abbasilərdən Osmanlı xanədanına keçmişdir.Səlim xan ilk Türk İslam xəlifəsidir.***

**(ardı var)**

> ***Türk donanmasının komandanı Kiçik Davud Paşa dənizçi deyildi.Ancaq komandanlıq yaxşı bir dənizçi olan Kemal Rəisə verilmişdi.Sağ cinah komandanı da yaxşı bir dənizçi olan Burak Reis idi. Dünyanın ən güclü iki donanması arasında tarixin ən böyük dəniz döyüşlərindən biri olacaq və bu savaş Aralıq dənizinin həqiqi sahibini müəyyənləşdirəcəkdi.***

